# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 09 (1692) 15 may 2019 - cu il Qiyməti 50 qəpik


# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər

**Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə və Heydər Əliyev Fondunun yaradılmasının 15 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.

Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Heydər Əliyev Fondunun əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

* * *

Sonra Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqlara göstərdiyi diqqət və qayğıya, böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafına verdiyi töhfələrə görə Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin direktor müavini Zərifə Məmmədovaya "Qızıl çinar" beynəlxalq mükafatını təqdim etdi.

* * *

Daha sonra BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Ulu Öndərin əlyazmasını Heydər Əliyev Fonduna təqdim etdi.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimləri ilə görüşdülər.



## BU SAYIMIZDA





Böyük Elmi Şurada 2

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş anım mərasimi 3





ATU-da çalışan İkinci Dünya Müharibəsinin veteranları mükafatlandırılıb 3

Nümayəndə heyətimiz Qazaxıstanda olub 3




Prorektor imtahan nəzarətçiləri ilə görüşüb 3

Neyrocərrahlıq kafedrasının yaranmasının 50 illiyinə həsr olunmuş Beynəlxalq Elmi-Praktik Konfrans 4

İmtahan ekspertləri təlimatlandırılıb 4

**Aprelin 30-da Böyük Elmi Şuranın növbəti iclası keçirilib. İclasa sədrlik edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə Əczaçılıq kimyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyevanın bu günlərdə 70 yaşının tamam olduğunu bildirib və ona Səhiyyə Nazirliyinin, eləcə də Azərbaycan Tibb Universitetinin "Fəxri Fərman"larını təqdim edib. Səhiyyə naziri cənab Oqtay Şirəliyevin təbrikini yubilyara çatdıran rektor M.Vəliyevanı öz adından və Böyük Elmi Şuranın üzvləri adından da təbrik edib, ona gələcək həyatında və elmi-pedaqoji fəaliyyətində yeni- yeni uğurlar diləyib.**




# Böyük Elmi Şurada

Bundan sonra İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayevin "ATU-nun İctimai səhiyyə fakültəsində tədrisin vəziyyəti və gənc mütəxəssislərin hazırlanmasının yaxşılaşdırılması işində kollektiv qarşısında duran vəzifələr" barədə məruzəsi dinlənilib.

Fakültə haqqında geniş məlumat verən məruzəçi bildirib ki, İctimai səhiyyə fakültəsi tibbi profilaktika ixtisası üzrə ölkədə profilaktik xidməti - sanitar epidemioloji nəzarət sistemi üçün kadrlar hazırlamaqla məşğuldur. Fakültə məzunları əhali arasında infeksion və qeyri infeksion xəstəliklərin yayılmasının yaranma səbəblərini və mexanizmlərinin qanunauyğunluqlarını öyrənməklə, ətraf mühitdə olan risk zonalarını aşkar edərək, elmi cəhətdən əsaslandırılmış profilaktik tədbirlər sistemini işləyib hazırlamaqla insanların sağlamlığının qorunmasını, əmək qabiliyyətini və həyat keyfiyyətinin yüksəldilməsini təmin edir.

Kredit sistemi çərçivəsində formalaşmış ali təhsilin ikinci mərhələsi olan rezidentura pilləsi həkim-gigiyenist, epidemioloq, infeksionist, mikrobioloq, laborant, sosial-gigiyena və səhiyyənin təşkili kimi ixtisaslara yiyələnmək imkanını yaratdığını deyən məruzəçi İctimai səhiyyə fakültəsində 10 kafedra və Elmi-Tədqiqat Mərkəzinin fəaliyyət göstərdiyini bildirib: "Fakültənin tərkibində olan kafedralarda və Elmi Tədqiqat Mərkəzində 25 professor, 3 məsləhətçi professor, 91 dosent, 94 baş müəllim, assistent, müəllim olmaqla, ümumilikdə 213 professor-müəllim heyəti və 120 nəfər yardımçı personal çalışır. Hazırda fakültənin 6 kursunda ümumilikdə 420 tələbə təhsil alır. Bu tələbələrdən 89.3% (375-i) Azərbaycan, 10.7% isə (45-i) rus bölməsindədir. Tələbələrin 71,4%-i dövlət, 28,6%-i ödənişli əsaslarla təhsil alır. 600 və 600-dən çox bal toplayıb fakültəyə qəbul olan tələbələrin sayı 167 nəfərdir ki, bu da fakültədə oxuyan tələbələrin 40%-ni təşkil edir".

Dekanlığın işinin əsasını təşkil edən tədris prosesinin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlərdən danışan dekan fakültədə tədrisin keyfiyyətini və səmərəsini yüksəltmək məqsədilə dekanlıqda tədris prosesinin təşkili və onun təkmilləşdirilməsi, tədris-metodik işlərin səviyyəsinin yüksəldilməsi, elmi-tədqiqat və tələbə elmi cəmiyyətinin və təlim-tərbiyə işinin həyata keçirildiyini deyib.

Sözünə davam edən məruzəçi qeyd edib ki, tədris prosesi ilə əlaqədar fakültə əməkdaşları tədris planının yerinə yetirilməsini dərs ilinin ilk günlərindən nəzarətə götürərək, tədris prosesinin düzgün təşkil edilməsinə, onun səmərəsinin artırılmasına çalışmışdır. Belə ki, pedaqoji ustalığı artırmaq və tədris prosesinin effektivliyini yüksəltmək məqsədilə müəllimlərin dərslərdə qarşılıqlı dinləmə və kafedra müdirlərinin dərslərdə iştirakı təmin edilmişdir.

Tədris ili ərzində dərsə davamiyyətin yaxşılaşdırılması, xüsusən üzürsüz səbəbdən dərs buraxmanın kəskin azaldılmasının kollektiv qarşısında duran ən vacib məsələlərdən biri olduğunu söyləyən A. Ağayev tədris ilinin imtahan sessiyasının nəticələri barədə də məlumat verib: "Bu istiqamətdə universitet tərəfindən 2018/2019-cu tədris ilində davamiyyət kriteriyalarının dəyişərək qayıb limitinin 20%-ə salınması və əlavə olaraq mühazirələrdə iştirak etmə limitinin 40%-ə qədər təyin edilməsi çox vacib addımdır. Nəticə olaraq, xüsusilə, yuxarı kurslarda davamiyyət göstəricilərində müsbətə doğru xeyli dəyişikliklər qeyd edilmişdir.

Hesabat dövründə universitetdə və o cümlədən fakültədə aparılan nizam-intizamın gücləndirilməsi işləri nəticəsində sessiya zamanı imtahana müxtəlif səbəblərdən gəlməyən tələbələrin sayı iki dəfədən çox azalmışdır. 2017-ci ildən Dövlət imtahanları universitetimizdə yeni üsulla, yəni tələbələrin təcrübi bacarıqlarının obyektiv strukturlaşdırılmış praktik imtahan (OSPİ) üsulu ilə aparılır.

Qış sessiyasının nəticələrinə görə, keçən il 65,6% olan keyfiyyət göstəricisi cari ildə fakültə üzrə artaraq 71,4% olmuşdur. Onu da qeyd etmək lazımdır ki, I kurs üzrə axırıncı payız semestrində keyfiyyət göstəricisi 3 dəfə artaraq, 57,4% olmuşdur. Müvafiq göstəricinin artmasını yeni qiymətləndirmə sistemi olan aralıq qiymətləndirmənin tətbiqi ilə əlaqələndirmək olar. Yay imtahan sessiyasının müqayisəli təhlilinə gəldikdə fakültə üzrə ümumi mənimsəmə göstəricisi nisbətən yüksəlmiş, lakin keyfiyyət göstəricisi aşağı olmuşdur.

Keçən tədris ilinin yay sessiyasında keyfiyyət göstəricisi 72%, 2017/18 tədris ilinin yay sessiyasında 67% olmuşdur. Qeyd olunan müvafiq göstəricinin aşağı olmasının səbəbini imtahanlara açıq tipli sualların tətbiqi və həmin sualların sayının 5-dən 10-a qədər artması ilə əlaqələndirmək olar. Beləliklə, imtahanlara açıq tipli sualların tətbiqi tələbələrin biliklərinin qiymətləndirilməsini daha real şəkildə göstərməyə imkan verdi.

Qeyd etmək lazımdır ki, universitetdə yeni yaranmış və son iki il ərzində uğurla fəaliyyət göstərən vahid Apellyasiya Komissiyası imtahan sessiyası zamanı meydana çıxan narazılıq və şikayətləri mütəşəkkil, operativ və obyektiv şəkildə həll etmişdir."

2018-ci ildən etibarən universitetin Elmi Şurasının qərarı ilə fakültənin İctimai Səhiyyə fakültəsi adlandırıldığını söyləyən natiq dedi ki, Avropa ölkələrində, Türkiyədə, ABŞ-da, hətta MDB-nin bəzi Tibb Universitetlərində də eyni adlı fakültə mövcuddur: "Hazırda 3 yeni ixtisas – bakalavr pilləsi üzrə fizioterapiya və ali təhsilli tibb bacısı, magistratura pilləsi üzrə səhiyyə menecmenti ixtisaslarına aid tədris proqramları təyinatı üzrə nazirliklərə təqdim edilmiş və müsbət rəy alınmışdır. Hər 3 ixtisas üzrə tədris proqramları hazırlanan zaman universitetimizə ABŞ-dan, Litvadan, Türkiyədən təcrübəli mütəxəssislər dəvət olunmuşdur. Bu dəyişikliklər həm də ali tibb təhsilinə olan tələbatla əlaqədar fakültənin reytinqinin artırılmasına xidmət edir. Fakültədə aparılan islahatlar əcnəbi tələbələrin müraciətlərində də bu və ya digər ixtisaslar üzrə təhsil almaq istəyini artırmışdır".



Tələbələrin gələcək həyatında TEC-in mühüm rolunu qeyd edən dekan bildirib ki, hesabat dövründə fakültədə TEC xətti ilə 60 tələbə elmi iş üzərində işləmişdi. Son konfransın qalibləri sırasından 27 məruzə diploma, 33 məruzə isə sertifikata layiq görülmüşdür. Keçən illə müqayisədə 9 kafedranın 6-da TEC-də iştirak edən tələbələrin sayı təqribən 2 dəfəyə qədər artmışdır.

Tədris-metodik, elmi, tərbiyəvi işlər haqqında da şura üzvlərinə ətraflı məlumat verən dekan bundan sonra da fakültənin professor-müəllim heyəti və tədrisə yardımçı əməkdaşların qarşıdakı illərdə bütün real və potensial imkanlarını səfərbərliyə alıb daha böyük məsuliyyətlə çalışacağını, yüksək ixtisaslı mütəxəssislərin hazırlanması işinə bilik və bacarığını sərf edəcəyini deyib.

Məruzə ətrafında çıxış edən Ümumi gigiyena və ekologiya kafedrasının müdiri, professor Mirzə Kazımov, Qidalanma və kommunal gigiyena kafedrasının müdiri, dosent İbrahim Əhmədov, Uşaq, yeniyetmələr və əmək gigiyenası kafedrasının müdiri, dosent Şəhla Balayeva və Ftiziatriya kafedrasının müdiri, dosent Rafiq Bayramov çıxış edərək bu dekanlığın həmişə olduğu kimi indi də öz yüksək mövqeyini qoruyub saxladığını dilə gətiriblər. Natiqlər Anar Ağayevin fəaliyyətini yüksək dəyərləndirərək onun işinə məsuliyyətlə yanaşan dekanlarımızdan biri olduğunu söyləyib və hesabatı qənaətbəxş qiymətləndirməklə yanaşı, bir sıra təkliflərini də irəli sürüblər.

Müzakirələrə yekun vuran professor G.Gəraybəyli İctimai səhiyyə fakültəsinin uzun illər universitetin daxilində özünəməxsus layiqli yer tutduğunu, lakin elmin sürətlə inkişaf etdiyi bir zamanda burada da artıq yeniliklərin baş verdiyini və dövrün tələbi səviyyəsinə uyğun islahatların aparılması vaxtının çatdığını deyib: " Anar müəllim fakültənin fəaliyyəti ilə bağlı ətraflı məlumat verdi. İctimai səhiyyə fakültəsinin dekanlığının tədris və tələbələrlə bağlılığı çox müsbətdir. Əksər problemləri dekan, eləcə də müavinləri və dekanlığın əməkdaşları, fəal tələbələrlə birgə yerində həll edir. Burada deyildiyi kimi, mən də hesab edirəm ki, fakültənin fəaliyyəti qənaətbəxşdir. Fakültədə tələbələrin 6 il oxumasına baxmayaraq, onlarla görüş zamanı ixtisasların haqlı olaraq az verilməsindən şikayətlənirlər. Bu gün dünyaya inteqrasiya tələbələr üçün vacib məsələlərdən biridir. Elə kredit sisteminə keçməyin əsas mahiyyətlərindən biri tələbələrin dünya elminə inteqrasiya edilməsidir. Bu fakültənin adını nə Almaniya, nə Türkiyə, nə də başqa ölkələrdə qəbul etməyiblər. Bəli, artıq fakültədə islahatlar başlayıb. Lakin bu islahatların kiçik hissəsi həyata keçsə də, hələ böyük hissəsi qabaqdadır. Burada ilk növbədə yeni ixtisasların yaranması vacibdir. Belə qərara gəldik ki, bu fakültənin adı altında yeni və köhnə təkmilləşdirilmiş ixtisaslar tədris olunsun. Anar müəllim də öz çıxışında qeyd etdi ki, biz artıq 4 yeni ixtisas üzərində dərsliklər hazırlamışıq. Onlardan bu il 3-ü qəbul olunub. Növbəti illərdə onlardan istifadə olunacaq və kafedraların dərs proqramlarının modernləşdirilməsi, dərsliklərin yenilənməsinə dair işlər aparılacaq.

2019-cu ildə təhsil proqramında və dərsliklərdə dəyişikliklərin olmasına, bu fakültənin 6 illik deyil, 5 illik təhsil proqramına keçilməsinə zərurətin yarandığını bildirən rektor vurğulayıb ki, bu dəyişikliyə əsasən həm də tələbələrin ixtisas alma uyğunluğu daha asan olacaq: "Hesab edirəm ki, dünyada və ölkəmizdə gedən inkişafla əlaqədar yeni ixtisaslar yaradılmalıdır. Misal üçün bura qida və nüvə təhlükəsizliyini daxil etmək olar. Bu sahədə mütəxəssislərin azlığını nəzərə alıb Avropa və Türkiyədə təhsil almış gənc kadrları işə cəlb etmək olar.

Bu fakültəyə aid olan kafedraların mövcud problemlərinin heç də digər fakültələrin kafedralarından fərqlənmədiyini bildirən professor G.Gəraybəyli deyib ki, tələbələrlə görüşlər müntəzəm aparılmalı, tədrisin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülməlidir: "Yaşından və iş təcrübəsindən asılı olmayaraq hamı bunu təsdiq edə bilər ki, tələbə maraqlı dərsə diqqət göstərir, maraqsız mühazirəyə isə gəlmir. Burada müəllimin keyfiyyətindən çox şey asılıdır. Dərsin və tələbəyə verilən tədrisin keyfiyyəti böyük problemdir. Elmi Şurada məlumat verdim ki, şənbə günü - qeyri iş günü I kurs tələbələri ilə görüş olsun, orada kafedra müdirləri də iştirak etsin. Sonra belə bir təklif oldu ki, tələbələr bəzən müəllimlərin yanında sıxılır, sözlərini deyə bilmirlər. Buna görə də bu qeyri-rəsmi görüşlərdə prorektorlar və dekanlar iştirak etdi. Amma mən istərdim ki, bütün kafedra müdirləri orada iştirak etsinlər. Biz bu gün feysbuk vasitəsi ilə görüşlərin canlı translasiyasını fikirləşirik. Müəllim onun kafedrası haqqında edilmiş müzakirəni bu vasitə ilə dinləyə bilər".

Sözünə davam edən rektor hazırda qayıbların tələbənin biliyinə təsirinin müzakirə edildiyini bildirərək bütün təklifləri dinləməyə hazır olduğunu deyib: "Ədalətsiz olar ki, 5 dərs buraxanla 1 dərs buraxana fərq qoyulmur və hər ikisindən də bir bal çıxılır. Hesab edirəm ki, növbəti Elmi Şurada bu barədə bir qərar layihəsi təqdim oluna bilər. Tələbələrin biliklərinin qiymətləndirilməsi haqqında da fikirlərimi çatdırmaq istərdim. Məndə olan məlumata görə, Təhsil Nazirliyində tələbələrin biliyinin qiymətləndirilməsinə yenidən baxılır. Təkliflər biz tərəfdən də olub və rəsmi əsasnamədə öz əksini tapmalıdır. Yeni tədris ili üçün biz bu əsasnaməni də əldə edə biləcəyik."

Müxtəlif məsələlərə də toxunan professor G.Gəraybəyli bildirib ki, universitetdə keçirilən seminarları, konfransları bir proqrama salmaq lazımdır. Rektor əlavə edib ki, növbəti tədris planları tətbiq olunarkən kafedralarda planlaşdırılan həmin tədbirlərin siyahısı göstərilməlidir. Çünki plandan kənar heç bir konfrans və seminara kredit verilmir.

Böyük Elmi Şura daha sonra elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçisini, həmçinin dərslik, dərs vəsaiti, metodik vəsaitlərin əlyazmalarının nəşrini təsdiqləyib və müsabiqə məsələlərini həll etməklə öz işini başa vurub.

**Mənsur ƏLƏKBƏRLİ**

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş anım mərasimi

**Mayın 8-də Azərbaycan Tibb Universitetində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş mərasim keçirildi.**



minnətdarlığının rəmzidir. Bu minnətdarlıq hissi və dərin hörmət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında olan naliyyətləri və xilaskarlıq missiyası ilə bağlıdır".

Rektor G.Gəraybəyli ümummilli lider Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin inkişafı yolunda həyata keçirdiyi siyasətin ayrı-ayrı istiqamətlərindən danışıb. Ulu Öndərin hakimiyyətdə olduğu dövrlərdə Azərbaycanda səhiyyənin inkişafına xüsusi diqqət göstərdiyini qeyd edib. Rektor bildirib ki, ümummilli lider Heydər Əliyev fenomeni istər Azərbaycan tarixində, istərsə dünya tarixində dərin bir iz qoyub: "Onun dərin siyasi irsi, həyat yolu bu gün də tarixçilər tərəfindən yeri var. Ulu Öndər deyirdi ki, "Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq". Əminliklə demək olar ki, bu gün biz məhz həmin tarixi yaşayırıq".

Mərasimdə ATU-nun Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev, Ümumi və toksikoloji kimya kafedrasının müdiri, professor Eldar Qarayev çıxış edərək ümummilli liderin həyat yolu, tarixi qərarları haqqında danışıblar. Qeyd olunub ki, azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olan Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulması-





Tədbirdə açılış nitqi ilə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli Ulu Öndər Heydər Əliyevin xatirəsinin həm Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda anıldığını bildirdi: "Bu tədbirlərin hər biri Azərbaycan xalqının Ulu Öndərə olan dərin öyrənilməkdədir. Həqiqətən də Azərbaycan dövlətçiliyinin yaranmasında, ümumiyyətlə Azərbaycanın və xalqımızın həyatında elə bir sahə yoxdur ki, orada Ulu Öndərin fəaliyyəti, gərgin işinin nəticəsi olmasın. Heydər Əliyevin Azərbaycan tarixində müstəsna na və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. ATU-nun II müalicə-profilaktika fakültəsinin 361[a] qrup tələbəsi Nərgiz Həbizadə sağlığında canlı əfsanəyə çevrilmiş dahi şəxsiyyətin gənclərə yönəlik siyasətindən danışıb.

# ATU-da çalışan İkinci Dünya Müharibəsinin veteranları mükafatlandırılıb

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli universitetdə çalışan İkinci Dünya Müharibəsi veteranları ilə görüşüb. Rektor faşizm üzərində qələbənin 74-cü ildönümü münasibətilə veteranları təbrik edib, onlara cansağlığı arzulayıb.**



9 may - Qələbə Günü bayramı ərəfəsində ATU rəhbərliyinin universitetdə işləyən veteranlarla görüşüb onları təbrik etməsinin artıq ənənə halını aldığını deyən professor G.Gəraybəyli bu ənənəni davam etdirməkdən çox məmnun olduğunu bildirib: "Bu möhtəşəm tarixi günün qeyd olunması gələcəyimiz və gənclərimiz üçün vacibdir. Biz bu tarixi unutmamalıyıq. Qələbə bayramı vaxtilə hər birimizin böyük həvəs və coşquyla gözlədiyimiz bayram idi. Sonradan 9 May tarixinin bayram kimi qeyd olunması Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bərpa edildi. Bu addım bir daha sübut etdi ki, tarixin üstündən xətt çəkmək olmaz. Faşizmlə mübarizədə canından keçən milyonlarla insanın qəhrəmanlığı heç vaxt unudulmayacaq".

Professor G.Gəraybəyli Azərbaycanda dövlət səviyyəsində müharibə veteranlarına diqqət və qayğı göstərildiyini, həmçinin ATU daxilində də canlı tarixin təcəssümü olan bu qəhrəmanlara böyük hörmət bəslənildiyini qeyd edib: "Kollektivimizdə İkinci Dünya Müharibəsi veteranlarının çalışması bizim üçün çox qürurvericidir. Fəxr edirik ki, siz tələbələrimizlə təmasda olursuz. Onlara nəinki tibbi elmlə bağlı bilikləri, həmçinin həyat təcrübəsini, böyük vətənpərvərlik hisslərini aşılaya bilirsiniz".

Rektor ATU kollektivi adından İkinci Dünya Müharibəsinin veteranlarını təbrik edərək onlara cansağlığı arzulayıb və hədiyyələr təqdim edib.

Sonra faşizm üzərində qələbənin 74-cü ildönümü ilə əlaqədar ATU-da çalışan veteranların mükafatlandırılması haqqında rektorun əmri oxunub. Əmrə əsasən, arxa cəbhə veteranları - ATU-nun Kommunal və qidalanma gigiyenası kafedrasının professoru Maqsud Qasımov, Uşaq, yeniyetmələr və əmək gigiyenası kafedrasının dosenti Rəhim Orucova universitet rəhbərliyi tərəfindən pul mükafatı təqdim olunub.

Görüşdə ATU-nun Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov və Mülki Müdafiə Qərargahının rəisi Firdovsi Məmədov iştirak ediblər. Görüşün sonunda xatirə şəkli çəkdirilib.

# Prorektor imtahan nəzarətçiləri ilə görüşüb

**Mayın 4-də imtahan nəzarətçiləri ilə görüşən ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev tədrisin nəticələrinin keyfiyyət göstəricilərinin müəyyən edilməsində imtahan prosesinin xüsusi rolundan danışıb.**





Son dövrlərdə aralıq sorğularının da İmtahan Mərkəzində kompüterlərlə aparıldığını xatırladan prorektor imtahan nəzarətçılərinin üzərinə böyük məsuliyyət düşdüyünü deyib: "Ona görə də dekanlar bu məsələyə ciddi yanaşmalı, prosesə daha məsuliyyətli müəllimlər, laborantlar və digər sahədə çalışan şəxslər cəlb olunmalıdır. Hər bir nəzarətçi öz sırasına cavabdehlik daşıdığından tələbələrin özünü necə aparmasını və digər texniki vasitələrdən istifadə edib-etməməsini daim diqqətdə saxlamalıdır".

Ayın 10-dan sonra V, VI kursların bəzilərində dövlət-buraxılış imtahanları öncəsi aralıq imtahanlarının da olduğunu söyləyən prorektor qeyd edib ki, nəzarətçilər ilk növbədə rektorun əmri ilə təyin olunduqlarını, onlara icazə verilməsi, yerlərinin dəyişdirilməsi ilə bağlı məsələləri yalnız universitet rəhbərliyinin həyata keçirdiyini bilməlidirlər.

Dekanların nəzarət prosesində ən aparıcı sima olduqlarını söyləyən S.Əliyev imtahanın gedişi, hələ də həllini tapmayan problemlər haqqında aydın təsəvvür yaranması baxımından imtahan nəticələrinin tədris hissəsinə vaxtında çatdırılmasının vacibliyinə də toxunub.

Hazırlıq mərhələsinin yekunlaşdığını bildirən İmtahan Mərkəzinin direktoru Ülkər Cəfərova nəzarətçilərlə fərdi qaydada söhbətlər aparıldığını diqqətə çatdırıb. O, imtahan prosesində bəzi tələbələrin, xüsusilə də xarici tələbələrin davranış qaydalarını kobud şəkildə pozduqlarını bildirərək bu haqda müvafiq ölçü götürülməsi üçün rektora müraciət ediləcəyini vurğulayıb.

Əczaçılıq fakültəsinin dekanı Kamandar Yaqubov və nəzarət qrupunun sədri Zümrüd Abaszadə də çıxış edərək bu ağır prosesdə nəzarətçilərin daha çox diqqət yetirməli olduqları məsələlərdən söhbət açaraq mövcud problemlərin həllinə dair öz təkliflərini irəli sürüblər.

Görüşün sonunda imtahan sessiyasına nəzarətçi qismində qatılacaq şəxslərin sualları cavablandırılıb və metal axtaran yoxlayıcı alət ola-ola girişdə ciblərin əllə yoxlanılaraq növbə yaradılmasına ehtiyac olmadığını, bununla əlaqədar mühafizəçilərə ciddi tapşırıqlar veriləcəyini vurğulayan prorektor S.Əliyev imtahan cədvəllərinin tərtibi, ədalətli bölgünün aparılması, internetdə yerləşdirilən sualların yoxlanılması, test suallarının artırılması və ümumilikdə prosesə nəzarətlə bağlı tövsiyələrini də nəzarətçilərin diqqətinə çatdırıb.

# NÜMAYƏNDƏ HEYƏTİMİZ QAZAXISTANDA OLUB

**Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov və Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev Qazaxıstandan səfərdən qayıdıblar. Səfər zamanı ATU-nun nümayəndələri müxtəlif formatlı beynəlxalq toplantılarda iştirak ediblər.**



Prorektor R.Bəylərovun sözlərinə görə, səfər Qazaxıstanın cənubundakı Türkistan şəhərində baş tutub: "Bu şəhərdəki Hoca Ahmet Yasevi adına Türk-Qazax Universitetində olduq. Burada Türkdilli Universitetlərin Türk Şurasının IV Baş Assambleyasının toplantısı keçirilirdi. Toplantının məqsədi Türk dilli universitetlərin birgə təhsil məkanı yaratmasına nail olmaqdan ibarət idi.

Prorektor R.Bəylərov bildirib ki, ümumilikdə toplantıda Azərbaycanın dörd universiteti təmsil olunub. Tədbir çərçivəsində ATU ilə Ahmet Yasevi Universiteti arasnda əməkdaşlıq müqaviləsi imzalanıb. Sazişə əsasən, iki universitet arasında qarşılıqlı elmi işlərin aparılması, tələbə mübadiləsinin təşkili, diplomların tanınması məsələləri nəzərdə tutulub. Toplantıdan sonra Azərbaycan nümayəndə heyəti Hoca Ahmet Yasevi adına Türk-Qazax Universitetində təhsil alan azərbaycanlı tələbələrlə görüşüblər.

Səfər zamanı ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev Türkistan vilayətində Türk Konsulluğu tərəfindən təşkil olunan Türk Keneşi II Gənc Liderlər Forumu, Türk Dünyası Gənclik, Mədəniyyət və Sənət Festivalında iştirak edib.

R.Vəlievin sözlərinə görə, toplantıda təmsil olunan universitetlərin tələbələri arasında dialoqlar baş tutub. O, çıxışında universitetimizin tələbə həyatı, klinikaları, dərslik fondu, tədris korpusları haqqında iştirakçılara məlumat verib. Qeyd olunub ki, hazırda universitetin hazırlıq qruplarında 600-dən çox tələbə təhsil alır.

Türk Konseyi II Gənc Liderləri Forumunda isə gənclərin inkişafı naminə planlaşdırılan ortaq layihələr müzakirə olunub. Səfər çərçivəsində nümayəndə heyətimizin Türkistanda yerləşən tarixi məkanlara turları təşkil olunub.

**ATU-nun mətbuat xidməti**

# İmtahan ekspertləri təlimatlandırılıb

**◆ Mayın 10-da Azərbaycan Tibb Universitetinin II, III , IV, V, VI kursların test suallarını tərtib edən imtahan ekspertlərinin toplantısı keçirilib.**



ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev ekspertlərin hüquq və vəzifələri barədə onlara ətraflı məlumat verib. Bildirib ki, yeni yaradılmış ekspert qrupu Böyük Elmi Şuranın qərarı və rektorun əmri ilə yaradılıb: "Bilirsiniz ki, ölkə rəhbərliyi də son illər təhsildə keyfiyyət məsələsinə xüsusi diqqət yetirir. Təbii ki, qiymətləndirmə obyektiv və şəffaf aparılarsa, təhsildə keyfiyyət də yüksək olar. Universitetdə də tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə aparılan islahatların nəticəsi olaraq ekspert qrupu yaradılıb. Qrupa obyektivliyin və şəffaflığın qorunması məqsədilə məsuliyyətli müəllimlər cəlb olunub. Onların əsas vəzifələrindən biri də hazırladıqları test



suallarının məxfiliyini qorumaqdır. Əgər məxfilik pozularsa, məsuliyyət ekspertərin üzərinə düşür".

Prorektor qeyd edib ki, ekspertlər arasında Azərbaycan, ingilis, rus dillərini və predmeti mükəmməl bilənlər olmalıdır ki, hər üç dildə testləri eyni cür tərtib edə bilsinlər. Ekspertlərin həmçinin apellyasiya şikayətlərində iştirak edəcəklərini bildirən professor S.Əliyev onların üstünlüklərindən də söz açıb. Onların fəaliyyətlərinin nəticəsi olaraq sonda əməklərinin dəyərləndiriləcəyini və bal veriləcəyini vurğulayıb. Ekspertlərə üzərlərinə düşən vəzifə və öhdəliklərə son dərəcə diqqətli yanaşmağı tövsiyə edən prorektor işdə yol verdikləri nöqsanlara görə son aylar 2 dosent və 1 müəllimin universitetdən xaric edildiyini diqqətə çatdırıb.

ATU-nun Təhsilin keyfiyyətinin təminatı və innovasiya şöbəsinin müdiri, professor Akif Qurbanov da öz çıxışında ekspertlərin hüquq və vəzifələrdən danışıb. Onların testləri hazırlamağa, tərtib etməyə, ekspertizasını aparmağa, keyfiyyətinə nəzarət etməyə səlahiyyətli olduqlarını bildirib. Ekspertlərə testlərin hazırlanması zamanı elmi, texniki, üslub baxımdan mövcud olan qüsurların tez bir zamanda aradan qaldırılmasını və məxfiliyin qorunmasını tövsiyə edib.

ATU-nun Apellyasiya Komissiyasının sədri, professor Surxay Musayev təşkil olunan ekspertlər qrupunun müsbət nəticəyə nail olacağına əminliyini bildirib. O, Apellyasiya Komissiyası yaradıldığı 2017-ci ilin mayından bugünədək komissiyaya 4500-ə yaxın tələbənin şikayət etdiyini vurğulayıb: "Əgər bu qurum yaradılmasaydı, 4500 tələbə aidiyyəti qurumlara, o cümlədən Təhsil və Səhiyyə Nazirliklərinə şikayət etməli olacaqdı. Amma burada əyləşən bacarıqlı, savadlı, səriştəli ekspertlərin səyi nəticəsində, şikayətlər ədalətli həllini tapdı, nəticədə yuxarı instansiyalara tələbələr tərəfindən heç bir şikayət edilmədi. Buna görə ekspertlərə təşəkkürümü bildirirəm."

Professor S.Musayev imtahan prosesi zamanı üzləşdikləri bir problemə də diqqəti çəkib. Bəzi hallarda tələbə haqlı olsa da, kompüterin test suallarının cavabını düzgün emal etmədiyini bildirib. Səbəbini isə cavablandırmada ardıcıllığın pozulması ilə izah edib. Bu məsələdə də mütəxəssisləri diqqətli olmağa və hansısa vasitə ilə kompüterdə üzləşdikləri problemləri aradan qaldırmağa çağırıb.

İmtahan Mərkəzinin direktoru Ülkər Cəfərova da çıxışında özündən əvvəlki natiqlərin qeyd etdiyi kimi, testlərin hazırlanmasında yol verilən bir sıra nöqsan və qüsurlardan söhbət açıb. Tərtib olunan testlərin məxfiliyinin qorunmasının məsuliyyətinin ekspertlərlə yanaşı, İmtahan Mərkəzinin də üzərinə düşdüyünü bildirib. Test suallarının hələ də tam şəkildə İmtahan Mərkəzinə təqdim edilmədiyini diqqətə çatdıran Ü.Cəfərova ekspertlərin bu məsələdə daha diqqətli olaraq üzərlərinə düşən öhdəliklərə daha məsuliyyətlə yanaşmalarının vacibliyini vurğulayıb.

# Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş ödənişsiz aksiyalar keçirilib

**◆ Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş ödənişsiz oftalmoloji əməliyyatlar icra olunub.**



Əməliyyatları ATU-nun Tədris Cərrahiyyə Klinikasının oftalmologiya şöbəsinin müdiri Qurban İsmayılov icra edib. Q. İsmayılov tələbələr üçün atılan bu addımın davamlı olacağını bildirib: "Tibb Universitetində təhsil alan müharibə veteranları, Qarabağ əlilləri, şəhid ailələri və valideyn himayəsindən məhrum olunmuş tələbələr üçün müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin ad günü münasibətilə Oftalmologiya şöbəsində pulsuz ekzelmer lazer əməliyyatı icra edirik. Bu gün 26 tələbə üzərində cərrahi əməliyyatlar həyata keçirilib. Əməliyyatlar universitetin rektoru, professor Gəray Gəraybəylinin tövsiyəsi və mənin dəstəyimlə reallaşıb. Bu əməliyyatlar refraksion anomaliyalar, miyapiyalar, mürəkkəb miyapik astiqmalar və qarışıq astiqmatizm xəstəliyindən əziyyət çəkən tələbələr üzərində icra olunur".

Qeyd edək ki, bu, artıq ikinci belə təşəbbüsdür. İlk ödənişsiz oftalmoloji müayinə aksiyası görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anım gününə həsr olunmuşdu.

# Tədris Terapevtik Klinikası isə uşaqlar üçün ödənişsiz kardioloji müayinə kampaniyası təşkil edib



ATU-nun Tədris Terapevtik Klinikasının uşaq kardioloqu Elnur İmanovun sözlərinə görə, dünyada, eləcə də Azərbaycanda anadangəlmə ürək qüsurlu uşaqların sayı artıb. Bu xəstəliyi vaxtında aşkar etmək çox vacibdir: "Xəstəliyin diaqnostikasını təyin etmək və lazım olan medikal, cərrahi və ya invaziv tibbi müdaxiləni etmək faydalıdır. Bu mərkəzin şüarı "Mən artıq ürək qüsurlu deyiləm"dir. Biz bu şüarı bütün tibbi yöntəmlərlə, öz təcrübəmizlə həyata keçirməyə çalışırıq. Xəstəlik vaxtında aşkarlanarsa və düzgün müalicə aparılarsa, xəstə sağala bilir".

Uşaq kardioloqu E.İmanovun bildirdiyinə görə, 85 xəstə rəsmi olaraq qeydiyyatdan keçib: "Müayinə olan xəstələrdən ikisində qazanılmış ürək xəstəliyi aşkarlanıb. Bizim Cərrahiyyə Klinikasının uşaq ürək-damar cərrahı Ramal Həsənov da aksiyada iştirak edir. Müayinələrin davamında hansısa bir əməliyyata ehtiyacı olan ürək qüsurlu xəstə olarsa, biz dərhal konsilium edib, uşağın əməliyyatı haqda qərar verə biləcəyik".

# Neyrocərrahlıq kafedrasının yaranmasının 50 illiyinə həsr olunmuş Beynəlxalq Elmi-Praktik Konfrans

**Mayın 11-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında universitetin Neyrocərrahlıq kafedrasının yaranmasının 50 illiyinə həsr olunmuş "Neyrocərrahlığın müasir problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Tədbiri giriş sözü ilə açan universitetin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov ölkəmizdə neyrocərrahiyyə üzrə ilk dəfə olaraq keçirilən bu konfransın praktik həkimlər üçün faydalı olacağını diqqətə çatdırıb. Bildirib ki, konfransın məqsədi Azərbaycanda çalışan bütün neyrocərrahları bir araya toplamaq, fikir mübadiləsi aparmaq və bu sahə üzrə dünyada baş verən yenilikləri bölüşməkdir.

Konfransda yerli mütəxəssislərlə yanaşı, xaricdən gələn mütəxəssislərin də iştirak etdiyini söyləyən prorektor hansısa bir patologiyanın aşkar olunması, dəqiq diaqnozun qoyulması və düzgün müalicə taktikasının seçilməsində həkimlərin müştərək çalışmasının əhəmiyyətini vurğulayıb. O, qarşıya qoyulan vəzifənin yüksək səviyyədə yerinə yetiriləcəyinə əminliyini ifadə edərək, hörmətli rektorumuz, professor Gəray Gəraybəylinin adından konfrans iştirakçılarına bir daha uğurlar diləyib.

Təşkilat komitəsi adından Azərbaycan neyrocərrahlarını və qonaqları salamlayan neyrocərrahlıq kafedrasının müdiri, professor Sabir Etibarlı Azərbaycanda neyrocərrahlığın yaranma və inkişaf tarixi, o cümlədən kafedranın fəaliyyəti barədə ətraflı məlumat verib: "Azərbaycanda ixtisaslaşmış neyrocərrahiyyə şöbəsi açılana, yəni 1966-cı ilə qədər xəstələrə neyrocərrahiyyə yardımı əsasən akademik Topçubaşovun rəhbərlik etdiyi klinikada - 2 saylı Şəhər Xəstəxanasında və müxtəlif travmatoloji şöbələrdə göstərilirdi. İxtisaslı neyrocərrahiyyə yardımının təşəbbüsçüsü nevropatoloq, professor Surxay Axundov olmuşdur. S.Axundov 1963-cü ildə Moskvadan Bakıya qayıdaraq ATU-nun Nevrologiya kafedrasına rəhbərlik etməyə başladığı ilk gündən neyrocərrahlıq xidmətinin yaranması üçün böyük işlər görmüşdür. Onun şəxsi təşəbbüsü ilə 1966-cı ilin sonunda Respublika Klinik Xəstəxanasında 50 çarpayılıq ixtisaslaşmış neyrocərrahiyyə şöbəsi açılmışdır. Neyrocərrahlıq kafedrası isə ilk dəfə 1968-ci ildə Azərbaycan Tibb Universitetinin III hospital cərrahlıq kafedrasının tərkibində yaradılmışdır. O zaman kafedra "III hospital cərrahlıq və neyrocərrahlıq" adlanırdı. Kafedraya professor Ə.Ağalarov rəhbərlik edirdi. Kafedrada Moskvadan Burdenko adına Elmi-Tədqiqat Neyrocərrahlıq İnstitutundan dəvət olunmuş tibb elmləri namizədləri A.Vəlibəyov, R.Əliyev, R.Həsənov və Polenov adına Sankt Peterburq ET neyrocərrahlıq institu-



tundan dəvət olunmuş t.e.n. G.Əsədov işləmişlər. Kafedra M.Mirqasımov adına xəstəxanada yerləşirdi. Kafedra işçilərinin respublikada ilk dəfə təşkil olunmuş neyrocərrahlıq şöbəsinin formalaşmasında xüsusi rolu olmuşdur. 1968-1980-ci illər



ərzində neyrocərrahlar tərəfindən 30-a qədər elmi məqalə və tezis çap edilmiş və 10 nəfər gənc neyrocərrah hazırlanmışdır".

Kafedranın sonrakı inkişaf mərhələsindən də söz açan S.Etibarlı müasir neyrocərrahlığın eyni zamanda baş-beyin anevrizm və insultlarının, epilepsiyasının və müxtəlif mənşəli ağrıların aradan qaldırılması üçün müvafiq əməliyyatlarla da məşğul olduğunu, hazırda kafedrada 1 professor, 2 dosent, 6 assistent, 1 baş laborantın çalışdığını deyib.

Xarici ölkələrdən gələn mütəxəssislər – İngiltərədən professor Henry Marsh, Türkiyədən professorlar Nejat Akalan, Erkan Kaptanoğlu və Ukraynadan professor A.Zorin də tədbirin açılışında çıxış edərək dəvətə görə minnətdarlıqlarını bildirib, burada aparılan təcrübə mübadiləsinin neyrocərrahlıq sahəsinin inkişafına töhfə verəcəyini söyləyiblər.

Tədbirdə dünyasını dəyişmiş neyrocərrahların xatirəsi xüsusi ehtiramla anılıb, hələ də sıralarımızda olan qocaman neyrocərrahların əməyi yüksək qiymətləndirilib və onlara mükafatlar təqdim olunub.

Konfransda neyrocərrahlarla yanaşı, digər tibb ixtisasları üzrə mütəxəssislərin məruzələri də dinlənilib.

**Arif MƏMMƏDLİ**

# Tələbə Elmi Cəmiyyətinin konfranslarında

**Bu il Azərbaycan Tibb Universitetində elmi işlərin yoxlanılması prosesinə dəyişikliklər edilib. Bu barədə ATU-nun I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov fakültənin cərrahi bölümünün Tələbə Elmi Cəmiyyətinin konfransında məlumat verib.**



Dekan E.Novruzov son dövrlərdə gənclərin elmə marağının artdığını bildirib. Bunu "qürurverici hal" adlandıran dekan bu məsələdə elmi rəhbərlərin böyük rol oynadığını qeyd edib.

Dekan E.Novruzov bu il TEC-in işində, konkret olaraq elmi işlərin yoxlanılması prosesində bir sıra dəyişikliklər olunduğunu da bildirib. Onun sözlərinə görə, artıq terapiya və nəzəri bölmədə yeni qaydalar tətbiq olunur və bu dəyişikliklər müsbət qarşılanıb.

ATU-nun Tələbə Elmi Cəmiyyətinin sədri dosent Müşfiq Həsənov çıxışında tələbələrə uğurlar arzulayıb, onlara təqdimat zamanı daha sərbəst olmağı məsləhət görüb.

Sonra tələbələrin müxtəlif elmi mövzular üzrə məruzələri dinlənilib.

IV kurs tələbəsi Leyli Abbasova "Piylənmədən əziyyət çəkən xəstələrin müalicəsinə differensial yanaşma" (elmi



rəhbərlər: professor F.Camalov, assistentlər A.Abdullayev və G.Abdulova) mövzusunda etdiyi məruzə münsiflər heyəti tərəfindən I yerə layiq görülərək diploma mükafatlandırılıb və universitet TEC-də iştirak etmək şansını əldə edib.

**Aprelin 19-da Stomatologiya fakültəsinin 46-cı Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilmişdir**

Xarici dillər bölməsi üzrə baş tutan konfransı giriş nitqiylə açan kafedranın müdiri, filologiya elmləri doktoru, professor Zemfira Məmmədova bildirib ki, universitetimizdə uzun illərdən bəri TEC-in konfranslarının hər il keçirilməsi bir ənənə halını almışdır. Hər il olduğu kimi bu il də tələbələrin elmi-tədqiqat işlərinə marağı artmaqdadır.



Konfransda məruzələrə keçməzdən öncə "Nəsimi ili"nə həsr edilmiş bədii hissə nü-





mayiş etdirilib. Tələbələr alman, ingilis və fransız dillərində şeirlər söyləyib, gitaranın müşayiəti ilə mahnılar səsləndiriblər. Sonra 26 məruzəçidən 18 tədqiqatçı tələbənin məruzəsi dinlənilib.

Münsiflər heyətinin səsvermə nəticələrinə görə I kurs tələbələri Nərgiz Əli, Mədinə Qacabekova, Səbinə Məmmədova, Aliyə Xəlilova, Nərgiz Nağıyeva, Əli Əsgərli və II kurs tələbələri Fərrux Bəhmalov, Cəlal Abudov diploma layiq görülüblər.

**Əczaçılıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin (TEC) elmi konfransından bir neçə gün öncə poster məruzələrə baxış keçirilib**





"AvroMed" QSC şirkətinin maliyyə dəstəyi ilə baş tutan konfransı fakültə üzrə TEC-in rəhbəri, dosent Nərgiz Məmmədova açıb. Tələbələr Azərbaycan Tibb Universitetinin himnini səsləndirdikdən sonra builki konfransa hazırlıq işlərini əks etdirən iki hissəli video çarx təqdim olunub.

Əczaçılıq fakültəsinin dekanı, dosent Kamandar Yaqubov öz məruzəsində TEC-in fəaliyyəti haqqında ətraflı məlumat verib, tələbələrə işlərində uğurlar diləyib.

Qeyd edək ki, 2018-2019-cu tədris ilində fakültə TEC-nin işinə 64 tələbə cəlb olunub və onlar ümumilikdə 45 iş təqdim ediblər.

Qiymətləndirmə zamanı hər bir tələbə diqqətlə dinlənilib və onlara mövzu ətrafında suallar verilib. 14 tələbə (13 iş) müxtəlif nominasiyalar üzrə yerlər uğrunda mübarizədə qalib olublar.

Konfransın sonunda qaliblər elan olunub. 11 nəfərdən ibarət münsiflər heyətinin seçiminə görə Hüseynzadə Aytəkin, Kazımzadə Hüseyn, Nağıyev Elvin, Əliyev Nurlan, Qədimova Günel "Ən yaxşı eksperimental iş", Əsgərova Gülmaya, Xəlil Yusuf, "Ən yaxşı referativ iş", Məmmədbəyli Qəmər, Rəsulova Aytac, Ali Al-Nıdawı Riyadh Jabbar, Xəlilli Vüsalə "Ən yaxşı poster", Abasova Ayan, Süleymanova Jalə, Reklin İlya isə "AvroMed" şirkəti tərəfindən seçilən iş" nominasiyasının qalibləri olub-



lar.

Qaliblərin hər biri diplom, hədiyyə və pul mükafatı ilə təltif olunub. Digər iştirakçılar isə "AvroMed" şirkəti tərəfindən hədiyyələr və sertifikatlarla mükafatlandırılıblar.

Konfransın sonunda "AvroMed" şirkətinin fəaliyyəti haqqında məruzə dinlənilib. Ümumilikdə tədbir yüksək səviyyədə baş tutub və konfransın işi həm iştirakçılar, həm də izləyicilər tərəfindən yüksək qiymətləndirilib.

**Mayın 7-də II Müalicə-profilaktika fakültəsinin Tələbə Elmi Cəmiyyətinin elmi konfransı keçirilib. İki gün davam edən konfransı giriş sözü ilə fakültənin dekanı, dosent İsrail Məhərrəmbəyli açıb:**



"Biz hər il may ayında TEC-in konfransını keçiririk. Tələbələrimiz bu dönəmdə istər nəzəri, istərsə də kliniki kafedralarda uzun müddət tədqiqat işləri aparıblar. Tələbələr apardıqları tədqiqat işlərini bu gün qarşınızda nümayiş etdirəcək, bir növ gördükləri işin hesabatını verəcəklər".

Universitetin Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov çıxışında keçirilən konfransı "elmin festivalı, TEC-in bayramı" adlandırıb.

Qeyd edib ki, hər bir gənc bir il ərzində böyük elmi işin araşdırması ilə məşğul olub, xeyli zəhmət sərf ediblər. Tibb Universitetinin hər bir müəllimi, dosent, professor, akademik dərəcəsinə çatanların hamısı bu mərhələni keçiblər: "Hər bir tələbə gələcəyin alimidir. Ona görə də hər biri tədris dövründə özünü sınamalıdır. Hesab edirəm ki, tələbələrin etdiyi hər bir çıxış konfrans iştirakçılarında böyük elmi maraq oyadacaq" - deyən prorektor onlara uğurlar arzulayıb.

Sonra ATU-nun II Uşaq xəstəlikləri kafedrasının müdiri, TEC-in elmi rəhbəri, professor Amaliya Əyyubova çıxış edib. Tələbələrə uğurlar arzulayaraq, onlardan ümidverici çox şeylər gözlədiyini bildirib. Tələbələrin hərtərəfli yetişməyində bu cür elmi işlərin aparılmasının vacibliyini qeyd edib. II Müalicə-profilaktika fakültəsində elmi araşdırmalarla bağlı işlərin qanedici olduğunu vurğulayıb. Məruzəçilərdən TEC-in sədri, dosent Müşfiq Həsənov, II Müalicə-profilaktika fakültə TEC-nin rəhbəri, dosent Aqil Əliyev və II Müalicə-profilaktika fakültə TEC-nin sədri Fidan Bəylərova da çıxışlarında tələbələrə uğurlar arzulayıb və tövsiylərini veriblər.

Sonra tədqiqatçı tələbələrin elmi araşdırmalarla bağlı çıxışları olub.

Sonda qaliblərə serifikatlar verilib. Cərrahi ixtisaslar üzrə I yerə Afina Süleymanova, II yerə Aytən Abbasova, Ləman Hüseynli, III yerə Təbriz Cavadov, terapevtik ixtisasları üzrə I yerə Səbinə Hacıyeva, II yerə Lamiyə Əliyeva, III yerə Hüseyn Kosayev, Nərmin Mirzəli, Sara Əhmədova, Patoloji



və kliniki fənləri üzrə I yerə Zeynəb Məmtiyeva, Şəkər Həsənzadə, II yerə Sonaxanım Şirinova, Ramazan Rzazadə, Gülnar Cəfərova, Təhminə Əliyeva, III yerə Azad Kərimli, Ebru Məmmədova, Şəhribanu Hüseynzadə, Təməl və nəzəri fənlər üzrə I yerə Səma Quluzadə, Səbinə Məmmədova, II yerə Fərhan Namazov, Mirxəzər İsmayılov, III yerə Heydər Məmmədov, Coşğun Əliyev, Aytac Kərimova layqi görülüblər.

**Mayın 1-6-da ATU-nun İctimai səhiyyə fakültəsinin Tibbi-profilaktika ixtisası üzrə 43-cü Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib. Konfrans 3 bölmə üzrə - Tibbi mikrobiologiya və İmmunologiya, Epidemiologiya, Yoluxucu xəstəliklər və Ftiziatriya bölməsi; Biokimya bölməsi; Gigiyena bölməsi üzrə aparıldı.**

Açılış mərasimində çıxış edən İSF 43-cü Tələbə Elmi Konfransının sədri, professor Anar Ağayev bu konfransın elmi kadrların yetişdirilməsində, tələbələrə təcrübi biliklərin aşılanmasında, onların elmi-tədqiqat işinə maraqlarının artırılmasında və yüksək ixtisaslı kadrların uğurlu bir platforma olduğunu bildirib.



Sonra konfransın proqramına uyğun olaraq bölmələr üzrə müvafiq kafedralarda çıxışlar olub. Mikrobiologiya və İmmunologiya, Epidemiologiya, Yoluxucu xəstəliklər və Ftiziatriya bölməsində 37, Gigiyena



bölməsində 16, Biokimya bölməsində 7 məruzə dinlənilib.

Ümumilikdə konfransın təşkilat komitəsinə 61 TETİ təqdim edilib ki, bu da əvvəlki illərlə müqayisədə 2,5 dəfə yüksək göstəricidir. Konfransda İctimai səhiyyə fakültəsinin tələbələri ilə yanaşı, digər fakültələrin tələbələri də iştirak ediblər. Onların arasında Müalicə-profilaktika, Stomatologiya, Əczaçılıq fakültələrinin tələbələri də olub. Bundan başqa, Hərbi Tibb Fakültəsinin kursantları da maraqlı məruzələrlə çıxış ediblər.

Konfransa təqdim edilən işlərin əksəriyyəti müasirliyi və təcrübi əhəmiyyəti ilə fərqlənib. Bu, münsiflər heyətinin qiymətləndirmə kriteriyalarında xüsusilə nəzərə alınıb. Qiymətləndirmə zamanı prezentasiyaların tərtibinə və dizaynına, həmçinin məruzəçilərin yerinə yetirdikləri tələbə elmi işlərinin aktuallığına, onların diskussiya qabiliyyətinə də fikir verilib.

Konfransın sonunda tədqiqat işini müvəffəqiyyətlə məruzə edib yer tutan tələbələrə diplomlar, digər tələbələrə isə sertifikatlar təqdim edilib.

Ümumilikdə dinlənilən 60 TETİ-dən 9 tələbə I, 19 tələbə II yerə layiq görülüb, diploma təltif olunub. 32 tələbə isə sertifikat alıb. Bundan başqa, bəzi tələbələrə də konfransda fəal iştirakına görə sertifikatlar verilib. Müəllimlər TEC-nin fəaliyyətinin yaxşılaşdırılması üçün maraqlı təklif və tövsiyələrini səsləndiriblər.

Artıq neçə ildir ki, ATU-nun müəllimlərinin pedaqoji fəaliyyətinin bal-reytinq cədvəlinə əsasən qiymətləndirilməsi ilə əlaqədar olaraq, Tələbə Elmi Cəmiyyətinin işində yaxından iştirak edən və tələbə işinə rəhbərlik edən müəllimlər də diplomlarla təltif olunublar.

*ATU-nun mətbuat xidməti*

# ŞƏRƏFLİ ÖMRÜN SƏHİFƏLƏRİ

**Belə bir deyim vardır ki, iki peşənin dəyəri ölçüyə gəlməz, sonsuzluq qədər qiymətlidir. Onlardan birincisi insanın gözü qarşısındakı qaranlıqları öz nuru ilə işıqlandıran elm və bilik öyrətməklə onun ağlına və düşüncəsinə aydınlıq gətirən müəllimlik, ikincisi isə insana həyatda ən vacib və dəyərli nemət olan can sağlığı bəxş edən həkimlik sənətidir. Həyat yolu bu iki peşənin kəsişdiyi nöqtədən keçənlər isə daha böyük sevgiyə layiqdir. Bu sevgidən, anadan olmasının 80, əmək və pedaqoji fəaliyyətinin 60 illiyi qeyd olunan Azər Vələdova da pay düşür.**



Azər Vələdov 1939-cu il mayın 3-də Qazax rayonunun Ürkməzli kəndində dünyaya gəlib. Ailənin yeganə övladı olan Azər ata nəvazişi görməmişdir. Belə ki, atası İkinci Dünya Müharibəsində qəhrəmancasına həlak olmuşdur. Ana himayəsində qalan Azər Vələdov 1947-ci ildə Ürkməzli kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1957-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib, sənədlərini uşaqlıq illərindən arzusunda olduğu N.Nərimanov adına Tibb İnstitutuna təqdim edib, qəbul imtahanlarını müvəffəqiyyətlə verib, lakin müsabiqədən keçə bilmədiyinə görə tibb məktəbinə imtahansız qəbul olunub. A.Vələdov 1959-cu ildə orta tibb məktəbini fərqlənmə diplomu ilə bitirib, Qazax rayon səhiyyə şöbəsində orta tibb işçisi vəzifəsinə qəbul olunur. 1963-cü ildə Sovet hərbi xidmətini başa vurduqdan sonra həkim olmaq arzusu ilə orta məktəb attestatını Bakı Dövlət Universitetinin biologiya fakültəsinə, orta tibb məktəbinin diplomunu isə Tibb İnstitutuna təqdim edir. Elə həmin il o hər iki universitetə qəbul olur. Lakin çoxdan arzusunda olduğu həkimlik sənətini hər şeydən üstün tutan gənc Azər təhsilini Tibb İnstitutunda davam etdirməli olur. İnstitutun ikinci kursundan Semaşko adına kliniki xəstəxananın kardioloji şöbəsində axşamlar orta tibb işçisi vəzifəsinə qəbul olunur və institutu bitirənə qədər həmin vəzifədə fəaliyyət göstərir. 1970-ci ildə ATİ-nu fərqlənmə diplomu ilə bitirərək, Böyük Elmi Şuranın qərarı ilə normal fiziologiya kafedrasında baş laborant vəzifəsinə təyin olunur. Bir müddət sonra kafedranın assistenti vəzifəsinə seçilir.

1986-cı ildə Moskva şəhərində akademik P.Anoxin adına Normal Fiziologiya İnstitutunda akademik K. Sudakov və ə.e.x., professor Q.Qəhrəmanovun rəhbərliyi altında dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. 1988-ci ildə kafedrada dosent vəzifəsinə seçilir. 50-dən çox elmi əsərin, bir neçə metodik vəsaitin və "Normal fiziologiyadan təcrübə dərsliyi"nin həmmüəlliflərindən biridir.

Azər müəllimin 3 övladı, 5 nəvəsi vardır.

Universitetin tələbə və müəllim kollektivi arasında dərin hörmət və nüfuza malik olan Azər müəllimin dərs dediyi tələbələr respublikamızda və dünyanın bir çox ölkələrində fəaliyyət göstərirlər. Biz də universitet əməkdaşları və dostlar adından Azər müəllimi yubileyi münasibətilə təbrik edir, ona uzun ömür can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq:

*Dünyamız mürəkkəb, yolumuz çətin,*
*Bu yolda mayak tək yanandır müəllim.*
*Yaxşılar az deyil eldə, obada,*
*Fəqət ən müqəddəs insandır müəllim.*

Azər müəllim də məhz belə insanlardandır!

*Normal fiziologiya kafedrasının əməkdaşları*

# Təcrübəli mütəxəssis, bacarıqlı pedaqoq

◆ **Bu günlərdə Yoluxucu xəstəliklər kafedrasının dosenti Ələsgər Həsən oğlu Vəliyevin 80 yaşı tamam oldu.**

Ələsgər Həsən oğlu Vəliyev, 13 may 1939-cu ildə Zəngilan rayonunun Qıraq–muşlan kəndində doğulmuşdur. 1957-ci ildə Zəngilan kənd orta məktəbini bitirmiş və elə həmin il Azərbaycan Tibb İnstitutunun (indiki ATU) müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1963-1968-ci illərdə Zəngilan rayon Mərkəzi Xəstəxanasında terapevt, infeksion xəstəliklər həkimi işləmiş, 1964-1968-ci illərdə isə Zəngilan rayon Tibb İşçiləri Həmkarlar Təşkilatının sədri olmuşdur.

1971-ci ildə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda aspiranturanı başa vuraraq tibb elmləri namizədi dissertasiya işini müdafiə etmişdir. 1973-cü ildən ATU-nun Yoluxucu xəstəliklər kafedrasında assistent, 1980-ci ildən isə dosent işləyir.

Ə.Vəliyev 1975-1984-cü illərdə İctimai əsaslarla Səhiyyə Nazirliyində baş mütəxəssis işləyib.

Respublikada vəba, tularemiya, qarayara, virus hepatitləri, qarın yatalağı xəstəliklərinin ocaqlarının ləğv edilməsində iştirak etmişdir. Sanitar aviasiyanın, Daxili İşlər və Ədliyyə nazirliklərinin qospitallarının məsləhətçisi vəzifəsində çalışıb. 1978-ci ildə Səhiyyə Nazirliyinin "Fəxri Fərman"ı ilə təltif edilib.

İndiyə qədər 90-dan çox məqalə, "Virus hepatitləri", "Bruselloz", "Salmonelloz", "Yaşlıların uşaq infeksion xəstəlikləri", "İnfeksion xəstəliklər və hamiləlik" monoqrafiyalarını, 3 dərs vəsaiti, 2 metodik göstəriş, 1 dərslik çap etdirmişdir.

Rus, ingilis, türk dillərini bilir.

Ə.Vəliyev 1995-2005-ci illərdə tibb üzrə fəlsəfə doktoru müdafiə şurasının üzvü, terapiya fənni üzrə Dövlət İmtahan Komissiyasının tərkibində olmuşdur. O, həm də Prezident yanında Dövlət İmtahan Mərkəzində ekspertdir. Respublika və Ümumittifaq İnfeksion Xəstəliklər Cəmiyyətinin üzvü olmuş, Kiyev şəhərində cəmiyyətin I qurultayında, Moskva və Rostov şəhərlərində pleniumlarında iştirak etmişdir.

2005-ci ildə UNESKO-nun Bişkek şəhərində təşkil etdiyi seminarda məruzə ilə çıxış edib.



Ələsgər müəllim infeksion xəstəliklər sahəsində təcrübəli mütəxəssis olmaqla yanaşı, bacarıqlı pedaqoq kimi tələbələrin böyük hörmətini qazanmışdır. Onun mühazirələri və təcrübə dərsləri nümunəvi xarakter daşıyır. Dosent Ə.Vəliyevin mövzulara verdiyi izahı tələbələr çox diqqətlə dinləyir və söylədiyi fikirləri asanlıqla mənimsəyirlər.

Ələsgər müəllimin uzun müddətli və səmərəli həkimlik və pedaqoji fəaliyyəti ona kafedranın professor və müəllim kollektivi arasında böyük hörmət və nifuz qazandırmışdır. Biz Ələsgər müəllimlə bir yerdə çalışmağımızdan qürur duyur, ona uzun ömür, gələcək həyatında uğurlar diləyirik.

*Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları*

# MƏŞQDƏ YANĞIN İMİTASİYA EDİLİB

**2018-2019-cu tədris ili üçün mülki müdafiə tədbirləri planına əsasən mayın 2-də Mülki Müdafiə (MM) qüvvələrinin xəbərdarlıq və toplanış məşqi keçirilmişdir. Məşqin keçirilməsində məqsəd xəbərdarlıq sisteminin vəziyyətinin yoxlanılması və MM qüvvələrinin şəxsi heyətinə xəbərdarlıq və toplanış üzrə vərdişlərin aşılanması olmuşdur.**



Məşqə hazırlıq mərhələsində məşqin təşkili və keçirilməsi haqqında obyekt rəhbərinin əmri verilmiş, məşqin keçirilmə planı tərtib olunmuş, MM qüvvələrinin şəxsi heyətinin xəbərdarlıq sxemi dəqiqləşdirilmiş, rabitə vasitələrinin vəziyyətinə baxış keçirilmiş və məşqin keçirilməsi ilə bağlı digər təşkilati tədbirlər görülmüşdür. Məşq iştirakçıları ilə metodiki toplantı keçirilmişdir.

Məşq rəhbərinin MM qüvvələrinin toplanması barədə göstərişi ilə məşq saat 15:30 dəqiqədə başlanmış və qüvvələrin şəxsi heyəti 3 saylı tədris korpusunun arxasında toplanmışdır. MM qüvvələrinin 55 nəfərindən 48 nəfəri toplanış yerinə gəlmişdir. Məşqə biokimya kafedrasının nümayəndələri də dəvət edilmişdir. MM qüvvələrinin şəxsi heyətlə komplektləşdirilməsi, tabel əmlakı ilə təchizatı və qarşıya qoyulmuş tapşırıqlar üzrə nəzəri bilikləri yoxlanılmışdır. Məlum olmuşdur ki, tabel əmlaki ilə təchizat qənaətbəxş deyildir. Saat 16:30 dəqiqədə yanğın hadisəsi imitasiya edilmiş və yanğınsöndürən cihazdan istifadə qaydası MM qüvvələrinin şəxsi heyətinə bir daha göstərilmişdir. Məşq rəhbərinin saat 17:00-da xəbərdarlıq və toplanış məşqinin başa çatması barəsində göstərişindən sonra məşqin nəticələri təhlil olunmuşdur. Aşkar olunmuş nöqsanların aradan qaldırılması barədə müvafiq göstərişlər verilmişdir.

Demək olar ki, məşq zamanı qarşıya qoyulmuş məqsədə əsasən nail olunmuşdur.

**F. Məmmədov,**
*Mülki Müdafiə Qərargahının rəisi*

# ATU-nun professoru beynəlxalq konqresdə çıxış edib

◆ **Azərbaycan Tibb Universitetinin Fizioterapiya və Tibbi Reabilitasiya kafedrasının professoru Nadir Hüseynov Sankt-Peterburq şəhərində beynəlxalq nümayəndələrin iştirakı ilə "Botkin oxusu" devizi ilə keçirilən Ümumrusiya Terapevtlər Konqresində iştirak edib.**



Konqres 23-24 apreldə Sankt-Peterburq şəhərinində Cankt-Peterburq hökumətinin təşkilatçılığı və Cankt-Peterburq Səhiyyə Komitəsi, Rusiya Terapevtləri Elmi-Tibbi Cəmiyyəti, S.Botkin adına Cankt-Peterburq Terapevtlər Cəmiyyəti, İ.Meçnikov adına Şimal-Qərb Dövlət Tibb Universiteti, Cankt-Peterburq Terapevtlər Assosiasiyası, akademik İ.Pavlov adına Birinci Sankt-Peterburq Dövlət Tibb Universiteti, S.Kirov adına Hərbi Tibb Akademiyası, "İnsan və onun sağlamlığı" MMC və "Ay Si Es" MMC-nin dəstəyi ilə "Crowne Plaza Airport" otelində keçirilib.

Tanınmış 3 akademik və 5 həmsədrin rəhbərlik etdiyi konqresi akademik V.Mazurov giriş nitqi ilə açıb. Konqres öz işini plenar iclaslarda və 12 ayrı-ayrı seksiyada davam etdirib.

Konqresdə təbabətin müxtəlif sahələrini Rusiyanın tanınmış nüfuzlu alımləri ilə yanaşı, xarici ölkə nümayəndələri də (Macarıstan, Avstriya, Almaniya, Azərbaycan, Belarus, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Litva və s.) təmsil ediblər.

1400-ə yaxın həkim-terapevtin iştirak etdiyi konqresdə Rusiyadan 50-dən artıq, MDB dövlətlərindən 5, Qərbi Avropa dövlətlərindən isə 8 nüfuzlu və tanınmış lektor müxtəlif mövzularda mühazirələr oxuyub.

Əsasən revmatologiya, nevrologiya, kardiologiya, pulmonologiya, qastroenterologiyanın aktual problemləri, komorbid və metabolik sindrom, şüa diaqnostikası, laborator diaqnostika və digər vacib məsələlərin müzakirəyə çıxarıldığı konqresdə ATU-nun professoru Nadir Hüseynovun "Revmatologiyada Komorbid problemlər"lə bağlı çıxışı da maraqla dinlənilib və müzakirə olunub.

"Çox maraqlı haldır ki, konqresin işində Rusiyanın çox nüfuzlu alimi hesab olunan akademik Q.Fedoseyevlə rəsmi görüşüm zamanı onun Azərbaycan və azərbaycanlı alimlər haqqında yüksək fikirdə olduğunun şahidi oldum" – deyən professor Nadir Hüseynov akademikin azərbaycanlı tələbəsi olan ATU-nun professoru Cəbrayıl Məmmədovu "yorulmadan elmi-tədqiqat işlərinin dərinliklərini öyrənən böyük alim və zəhmətsevər yaxşı insan" adlandırmasından qürur hissi duyaraq onlar arasında telefon bağlantısı yaratdığını bildirib.

Konqresin ümumi yığıncağında ölkələr arasında əməkdaşlığın perspektivləri müzakirə olunub, xüsusi "Bəyənnamə" qəbul edilib.

# Tələbələrimiz beynəlxalq konfransda iştirak ediblər

❍ **Aprelin 30-da Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinin III kurs tələbələri Cavid Mustafazadə və Hafiz Həsənov Bakı Mühəndislik Universitetinin təşkil etdiyi Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransında iştirak ediblər.**




Böyük marağa səbəb olan konfransda yerli və xarici universitetlərdən göndərilən 700-dən çox məqalə və məruzələr müxtəlif mövzular üzrə təqdim olunub.

Konfransda tələbələrin nümayiş etdirdiyi elmi araşdırmalar müsbət qiymətləndirilib və sertifikatlarla təltif olunub.

Elmi araşdırmaların tezisləri konfransın rəsmi jurnalında dərc edilib.

# «İnsan və cəmiyyətin sağlamlığına müasir yanaşmalar» mövzusunda beynəlxalq elmi konfrans

**Aprelin 30-da ATU-nun Tədris Cərrahiyyə Klinikasında "İnsan və cəmiyyətin sağlamlığına müasir yanaşmalar" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Səhiyyə Nazirliyi və Azərbaycan Tibb Universiteti-nin birgə təşkilatçılığı ilə baş tutan konfransa Rusiyanın Perm və Cənubi-Ural Dövlət Tibb Universitetləri, İtaliyanın Milli Təbabət Universiteti və digər tibb müəssisələrinin aparıcı mütəxəssisləri qatılmışlar.





Mamalıq-ginekologiya, cərrahiyyə, onkologiya, plastik cərrahiyyə, endokrinologiyanın aktual problemlərinə həsr olunmuş tədbiri ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov açaraq universitet rəhbərliyi adından xoş arzularını çatdırıb və konfransın işinə uğurlar arzulayıb. O, konfransda yerli mütəxəssislərlə yanaşı, İtaliya, Rusiya, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan olan alimlərin iştirak etdiyini bildirib: "Konfransda təbabətin bir sıra növlərindən bəhs ediləcək aktual problemləri əhatə edəcək məruzələr və müzakirələr aparılacaq. Düşünürəm ki, həmin müzakirələr həm praktiki həkimlər, həm də elmi istiqaməti olan alimlər üçün maraqlı olacaq. Burada yerli və beynəlxalq mütəxəssislərin öz tədqiqatlarını bölüşmələri səhiyyənin inkişafına və gələcəkdə elmi işlərin aparılmasına töhfə verəcək".

Sonra çıxış edən universitetin I mamalıq-ginekologiya kafedrasının professoru Nigar Kamilova Azərbaycan Tibb Universitetinin tarixi inkişaf yolları və burada son illərdə görülən işlər barəsində tədbir iştirakçılarına ətraflı məlumat verib.

Konfransda Rusiya Elmlər Akademiyasının akademiki, professor A.Vajenin, Perm şəhərindən professor O.Orlov, İtaliyadan professor F.Ayello və Krasnoyarsk şəhərindən A.Modestov da çıxış edərək tədbirin təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu vurğulayıblar. Azərbaycana gəldiklərindən məmnun qaldıqlarını söyləyən qonaqlar beynəlxalq elmi konfransın təşkilatçılarına öz minnətdarlıqlarını bildiriblər.

Konfransın plenar iclasında "Müasir tibbdə yalançı elm problemi" mövzusunda akademik A.Vajenin mühazirə ilə çıxış edib. Professor O.Orlov isə süd vəzinin onkoloji xəstəliyinin cərrahi müalicəsində orqanın saxlanması metodikası haqqında ətraflı məlumat verib. Eyni zamanda İtaliya, Rusiya, Qazaxıstan, Özbəkistan, Gürcüstan və s. ölkələrin alimlərinin də məruzələri dinlənilib.

Plenar iclasın ikinci hissəsi professor L.Alimxodjayeva, professor A.Aranoviç və professor R.Axundovun sədrliyi ilə davam etdirilib.

Dəyirmi stol arxasında təşkil olunan müzakirələr zamanı Rusiya, İtaliya, Özbəkistan, Gürcüstan və Azərbaycandan olan alimlər müasir tibb elminin problemlərinə aid suallar ətrafında geniş fikir mübadiləsi apardılar.

Plenar və bölmə iclaslarından sonra konfrans haqqında qətnamə qəbul olunub və iştirakçılara sertifikatlar təqdim edilib.

# Sinaptopatiyalar və Paroksizmal sindromlar» mövzusunda seminar

**Aprelin 29-da Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrası tərəfindən təşkil edilmiş "Sinaptopatiyalar və Paroksizmal sindromlar" mövzusunda seminar keçirilib.**



Seminarın açılışında Nevrologiya kafedrasının müdiri, ə.e.x., professor Şərif Mahalov Azərbaycanda genetik xəstəliklərin araşdırılmasının aktuallığı haqqında çıxış edib. Daha sonra London Universitet Kollecinin professoru Henry Houldenin məruzəsi dinlənilib.

Azərbaycan Tibb Universiteti ilə London Universitet Kolleci arasında görüş keçirilərək gələcək əməkdaşlıq prinsipləri müzakirə olunub. Görüş çərçivəsində professor Aytən Məmmədbəylinin və professor Henry Holdenin təşəbbüsü ilə Azərbaycan Tibb Universiteti və London Universitet Kollecinin Nevrologiya İnstitutu arasında nevrologiya sahəsində aktual problemləri və xəstəlikləri özündə birləşdirən ortaq elmi tədqiqatların aparılmasının perspektivlərindən söhbət açılıb, qurumlar arasında əməkdaşlıq müqaviləsinin bağlanmasının əhəmiyyəti xüsusi vurğulanıb.

# Tibb Universitetini 40 il öncə bitirən məzunların görüşü olub

**Mayın 9-da Azərbaycan Tibb Universitetində 1979-cu ilin Müalicə-profilaktika fakültəsinin məzunlarının görüşü olub.**




Tədbirdə məzunlara vaxtilə dərs deyən müəllimlərdən Histologiya, embirologiya və sitologiya kafedrasının müdiri, professor Eldar Qasımov, Nevrologiya kafedrasının müdiri, professor Şərif Mahalov, Normal fiziologiya kafedrasının dosenti Rəşid Mahmudov iştirak ediblər.

Tədbiri giriş sözü ilə Ümumi cərrahlıq kafedrasının professoru Məhəmməd Kərimov açaraq, onlara dərs deyən müəllimləri və tələbə yoldaşlarını salamlayıb. Toplantının universitetdə yüksək səviyyədə keçirilməsinə şərait yaratdığı üçün öz adından və tədbir iştirakçıları adından ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə dərin təşəkkürünü bildirib. Aradan keçən 40 il ərzində dünyasını dəyişən müəllim və məzunların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

M.Kərimov bu tədbirin həyatlarında önəmli və əlamətdar hadisə kimi yadda qalacağını qeyd edib: "Bu tədbir mənə 1973-cü il sentyabrın birini xatırlatdı. Mənə elə gəldi ki, auditoriya zalında sanki tədrisin haylı-küylü ilk günü başlayıb. Bu gün o hissləri hər birimiz yaşadıq. Qeyd edim ki, 1979-ci ilin buraxılış tədbirinin keçirilməsində bir çox təşəbbüsdə olanlar oldu. Özüm də onların sırasındayam. Bunu birgə keçirmək qərarına gəldik. Keçən 40 il ərzində yüksək elmi adlar alanlar, tibb sahəsində yüksək vəzifələrdə çalışanlar, universitetdə dərs deyənlər olub. Bu müddət ərzində uğurlarımız da olub, itkilərimiz də. Ən böyük itkilərimiz sevimli müəllimlərimiz və tələbə yoldaşlarımızı itirməyimiz olub. Mən dünyasını dəyişənlərin hamısının ruhları qarşısında baş əyirəm. Bu tədbirin keçirilməsində ən çox təşəbbüs göstərən və bu əlamətdar günü görə bilməyən Mehdi Mehdiyevin adını xüsusilə qeyd etmək istəyirəm."

Tədbir zamanı məzunlara dərs deyən və yuxarıda adları çəkilən müəllimlər və o cümlədən Anatomiya kafedrasının professoru Mübariz Allahverdiyev çıxış edərək tədbir iştirakçıları ilə bağlı öz ürək sözlərini söyləyiblər.

Nastolji hisslərə köklənən məzmunda məzunlar da çıxışlar edib, bu tədbirə şərait yaradanlara və təşkilatçılara təşəkkürlərini bildiriblər. Tədbir başa çatdıqdan sonra onlar Anatomiya Muzeyi ilə yaxından tanış olub, oradakı zəngin eksponatlarla bağlı məlumat əldə edib, son dövrlər universitetdə baş verən müsbət dəyişiklikləri təqdiredici hal kimi dəyərləndiriblər. 40 il ərzində həm universitetin özündə, həm də tədrisdə xeyli dəyişikliklərin nəzərə çarpdığını, dünyanın elm mərkəzləri və universitetlərlə ikitərəfli əlaqələrin yaradılmasını fəxarət hissi ilə qeyd ediblər.

**Qabil ABDULLAYEV**

# Əməkdaşımız Beynəlxalq Konqresdə sədrlik edib

**Türkiyənin Antalya şəhərində Türk Toraks Dərnəyinin 22-ci Beynəlxalq Konqresi keçirilmişdir.**

Konqres Amerika Toraks Cəmiyyəti, Avropa Respirator Cəmiyyəti, eləcə də Avropa Allerqologiya və Klinik İmmunologiya Akademiyasının dəstəyi və təmsilçilərinin iştirakı ilə reallaşmışdır. Konqresdə Türkiyənin müxtəlif bölgələrində fəaliyyət göstərən həkim və alimlərlə yanaşı, bir sıra xarici ölkələrin də nümayəndələri iştirak etmişlər.

Konqresdə döş qəfəsi orqanlarının iltihabi, allergik, cərrahi, onkoloji, irsi-genetik xəstəliklər, vərəm, peyvəndlərin aparılması, ekoloji amillərin xəstəliklərin yaranmasında rolu və s. aktual problemlərə dair müxtəlif məruzələr dinlənilmiş, bu sahədə əldə edilən uğurlar konqres iştirakçılarının nəzərinə çatdırılmışdır. Geniş diskussiya şəraitində keçən konqresin gedişi media tərəfindən də geniş işıqlandırılmışdır.

Məruzəçilərdən Amerika Toraks Cəmiyyətinin təmsilçisi Marc Moss, Avropa Respirator Cəmiyyətinin təmsilçisi Thierry Trooturs və digərlərinin çıxışları daha böyük maraqla qarşılanmışdır.




Ölkəmizdən Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kaferdasının dosenti Məleykə Kərimova konqresə seksiya sədri kimi dəvət olunmuşdur. O, Avropa Allerqologiya və Klinik İmmunologiya Akademiyasının dəstəyi ilə Antalyada keçirilən 14-cü Beynəlxaql Uşaq Allergiya və Astma Konqresində də iştirak etmişdir. Bu konqresdə uşaq yaşlarında təsadüf olunan allergik xəstəliklər, viziq sindromu, xronik öskürək və s. aktual mövzularda məruzələr dinlənilmişdir.

# Təşkilat heyətinin yeni strukturu açıqlanıb

**Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin aprel ayı üçün hesabat-seçki iclası keçirilib. Hesabat tədbiri çərçivəsində ayın tələbəsi və yeni təşkilati heyət seçkiləri baş tutub.**



ATU-nun THİK-in sədri Elvin Kərimli tədbir iştirakçılarına aprel ayı boyunca keçirilən tədbir və işlər haqqında məlumat verib.

THİK-in tədbirlərində mütəmadi, aktiv iştirakına görə tələbələrdən Qaysar Şabanov, Nihad Novruzov və Vüsalə Məhərrəmli "ayın ən aktiv tələbəsi" sertifikatına layiq görülüblər.

Daha sonra təşkilat heyətinin yeni strukturu açıqlanıb. Cavid Mustafazadə və Rəşad Məmmədli ATU-nun Tələbə Həmkarlar İttifaqının sədr müavini, Nihad Novruzov teatr dərnəyi üzrə sədr, Sərxan Cəfərli media departamentinin rəhbəri, Vüsalə Məhərrəmli isə film klubunun rəhbəri təyin ediliblər.

Sonra klub və departamentlərin ("Teatr dərnəyi"; "Film klubu"; "Media departamenti"; "Debat klubu") yaradılması qərara alınaraq ideya və təkliflər müzakirə edilib, may ayı üçün tədbirlər planı hazırlanıb.

# Əməkdaşımız beynəlxalq konfransda iştirak edib

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Konfransda ATU-nun farmakoqnoziya kafedrasının baş müəllimi, Tələbə Həmkarlar İttifaqının sədri, ə.ü.f.d Elvin Kərimli "Achillea nobilis növü efir yağının spirtli sulu məhlulunun antimikrob təsiri" mövzusunda məruzə ilə çıxış edib.

İki gün davam edən konfransın ilk günü plenar məruzələr dinlənilib, növbəti gün isə müxtəlif seksiyalar üzrə çıxışlar olub. Sonda nümayiş etdirilən elmi araşdırmalar rəsmi konfrans materiallarında dərc edilib.



**ATU-nun mətbuat xidməti**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

# KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedraların professorları:

- Ümumi cərrahlıq kafedrası - 1 yer
- III daxili xəstəliklər kafedrası - 2 yer
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

### Kafedraların dosentləri:

- Məhkəmə təbabəti kafedrası - 1 yer
- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- Normal fiziologiya kafedrası - 2 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer
- Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası - 1 yer
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Travmatologiya və ortopediya kafedrası - 1 yer
- Epidemiologiya kafedrası - 1 yer
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer
- III daxili xəstəliklər kafedrası - 2 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer (0,75 vahid)
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,75 vahid)
- Farmakoqnoziya kafedrası - 1 yer

### Kafedraların assistentləri:

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- I uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- Terapevtik stomatologiya kafedrası - 5 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Anesteziologiya və reanimatologiya kafedrası - 4 yer
- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer (0,5 vahid)
- III daxili xəstəliklər kafedrası - 3 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,75 vahid)
- Uşaq stomatologiyası kafedrası - 2 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Biofiziki və bioüzvü kimya kafedrası - 2 yer (0,5 vahid)
- Farmakoqnoziya kafedrası - 1 yer
- Farmakoqnoziya kafedrası - 2 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer

### Kafedraların baş müəllimləri:

- Tibbi fizika və informatika kafedrası - 2 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 2 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Azərbaycan dili kafedrası - 2 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer
- İnsan anatomiyası və tibbi terminologiya kafedrası - 1 yer

### Elmi Tədqiqat Mərkəzi:

- Eksperimental cərrahiyyə şöbəsi (şöbə müdiri) - 1 yer
- Biokimya şöbəsi (şöbə müdiri) - 1 yer
- Morfologiya və histologiya şöbəsi (şöbə müdiri) - 1 yer
- Bioloji fəal maddələrin sintezi şöbəsi (baş elmi işçi) - 1 yer
- Morfologiya və histologiya şöbəsi (baş elmi işçi) - 1 yer

### Bioloji kimya kafedrası üzrə Elmi Tədqiqat Laboratoriyası

- Kiçik elmi işçi - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08.

# İrimiqyaslı qəzalar zamanı ilk tibbi yardım və əhalinin mühafizəsinin təşkili

**Dövlət və cəmiyyətin əsas problemlərindən biri də sülh və ya hərbi dövrlərdə əhalinin normal həyat fəaliyyətinin təmin edilməsidir. Bu məqsədlə yaranmış fövqəladə halların idarə olunması üzrə xüsusi qurumlar yaradılır. Bu məsələlərin həlli həmçinin yerli icraedici və idarəetmə orqanlarına tapşırılır. Hüquqi dövlət kimi Azərbaycan Respublikasında bu sahədə bütün məsələləri tənzimləyən qanunlar və digər normativ aktlar mövcuddur.**

Azərbaycan Respublikası 1993-cü ildən Beynəlxalq Mülki Müdafiə Təşkilatının üzvlüyünə qəbul edilmiş və BMT-in bütün konvensiyalarının tələblərini yerinə yetirməyi öz öhdəsinə götürmüşdür. Buna görə də müstəqillik dövründə bir sıra qanunlar qəbul edilmişdir. Təsadüfi deyil ki, BMT yanında MAQATE təşkilatı bütün ölkələrdəki atom elektrik stansiyalarında texniki vəziyyət və istismar qaydalarını müntəzəm yoxlayır. Bu cür tədbirlər 1985-ci il Çernobıl və 2011-ci il Fukusimo AES qəzalarından sonra daha tez-tez aparılır. Maraqlı məqamlardan biri də odur ki, müasir dövrün ən dəhşətli texnogen qəzaları məhz aprel aylarında baş vermişdir və nəticələri bu günə qədər aradan qaldırılmamışdır. Qeyd etməliyik ki, Çernobıl AES-də baş verən qəzanın nəticələrinin aradan qaldırılmasında 6000 nəfər soydaşımız iştirak etmişdir. Onlardan 3000 nəfəri dünyasını dəyişmiş və 3000 nəfəri isə hal-hazırda əmək qabiliyyətini itirmiş vətəndaşlar kimi Azərbaycan Dövlətinin xüsusi himayəsindədirlər. Ukrayna və Belarusda isə ağır demoqrafik və ekoloji vəziyyət yaranmışdır. Bu cür ağır nəticələr kimya sənayesi müəssisələrində baş verəcək qəzalarda da gözlənilir. Bu səbəbdən nüvə və kimya sənayesi müəssisələri yaşayış məntəqələrindən aralı tikilməli, nüvə məhsullarının istehsalı, saxlanılması və daşınma qaydalarına ciddi riayət olunmalıdır.

30 dekabr 1997-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi "Mülki Müdafiə haqqında" Qanun qəbul etmişdir. Bu qanun, yaranacaq fövqəladə hallar zamanı vətəndaşların hüquq və vəzifələrini müəyyən edir. Qəzalar baş verən zaman FHN-in Böhranlı Vəziyyətlərin İdarə Olunması Mərkəzinə və əlaqədar qurumların qaynar xətlərinə məlumat verilməlidir. Qəza ocaqlarına yaxın yerdə qərargah yaradılmalı, səmərəli iş fəaliyyəti üçün rabitə vəsaitlər ilə təmin olunmalıdır.

Azərbaycan Respublikasının "Əhalinin Radiasiya Təhlükəsizliyi Haqqında" Qanunu ulu öndər Heydər Əliyev tərəfindən imzalanmışdır. Bu Qanun radioaktiv şüa mənbələri sahəsində qəzasız fəaliyyətin, əhalinin radiasiya təhlükəsindən qorunması və sağlamlığının mühafizə edilməsinin hüquqi əsaslarını müəyyən edir.

Qanun VI fəsil və 28 maddədən ibarətdir.

Kimyəvi qəzaların baş verdiyi təqdirdə tətbiq olunan bir sıra kimyəvi mühafizə tədbirləri görülməlidir. Bu tədbirlərin sırasına kimyəvi qəza faktının aşkarlanması və bu barədə xəbərdarlıq olunması daxildir. Eyni zamanda əhali, qəza obyektinin şəxsi heyəti, qəza nəticələrinin aradan qaldırılmasında iştirak edənlərin tənəffüs orqanlarının və dərisinin qorunması üçün onların fərdi mühafizə vasitələri ilə təmin olunması zəruridir.

Lazım gəldikdə əhalinin kimyəvi zədələnmə zonasından təxliyə olunmasına, əhali və işçi heyətin QTKM-dən mühafizəsini təmin edən sığınacaqlarda yerləşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

Radiasiya qəzası barədə xəbərdarlıq olduqda isə tənəffüs orqanlarını qorumaq üçün dəsmaldan (şərfdən) istifadə etmək və dərhal sığınacaq axtarmaq, sığınacağa çatan zaman üst geyimi və ayaqqabıları soyunub plastik paketlərə qoymaq, ventilyasiya çıxışları və pəncərədə olan çatları bağlamaq lazımdır.

Bu sahədə əhalinin maarifləndirilməsi işində təkcə əlaqədar qurumların deyil, eyni zamanda kütləvi informasiya vasitələrinin imkanlarından da istifadə edilməlidir.

Mühafizə tədbirlərinin öyrədilməsi ilk növbədə orta məktəblərdə təşkil olunmalıdır.

**Aqil MUSAYEV,**
*Ümumi cərrahlıq kafedrasının assistenti*

# Rezidentlər üçün seminar

**Mayın 8-də ATU-nun rezidentləri üçün növbəti elmi-praktik seminar keçirilib.**



Seminarın mövzusu və məruzəçiləri haqqında məlumat verən ATU-nun Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə məsul şəxsi, I cərrahi xəstəliklər kafedrasının assistenti, t.ü.f.d. Azər Hümmətov bildirib ki, bugünki seminarda Respublika Endokrinoloji Mərkəzindən rotasiyaya gəlmiş endokrinoloq ixtisası üzrə rezidentlər Nigar Qafarova, Günay Məmmədova, Rəna Xalıqverdiyeva və Nərmin Abbasovanın məruzələri dinlənilib. Məruzəçilər "Qalxanabənzər vəzi xəstəlikləri", "Hamiləlik zamanı olan düyünlər" və "Yod çatışmazlığı" mövzularında çıxış ediblər.

Məruzəçi rezidentlər əsasən endokrinoloji xəstəliklər zamanı müalicənin daha səmərəli aparılması yollarından söhbət açıblar. Onlar tibbin bu sahəsi üzrə dünyada tətbiq olunan ən müasir metodlara uyğun aparlan yeni müalicə üsulları barədə ətraflı məlumat veriblər.

Geniş diskussiya şəklində aparılan elmi-praktik seminarda tədbir iştirakçılarını düşündürən suallar rezidentlər tərəfindən cavablandırılıb.

## Etibarsız sayılır

I müalicə-profilaktika fakültəsinin VI kurs, $72^{b}$ qrup tələbəsi Orucov Mirhəsən Kazım oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $841^{b}$ qrup tələbəsi Abbaszadə Seyidağa Elçin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $282^{a}$ qrup tələbəsi Mehtiyev Xəyyam Nazir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $278^{a}$ qrup tələbəsi Məmmədzadə Nərgiz Səməndər qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $117^{a-3}$ qrup tələbəsi Yusufoğlu Şilan Mehmet qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, 790-cı qrup tələbəsi Baxşəliyeva Pakizə Xalid qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin III kurs, 804-cü qrup tələbəsi Kurbanova Meruyert Omarbek qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $218^{a-1b}$ qrup tələbəsi Nəsibov Səfər Vüqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $48^{b}$ qrup tələbəsi Yaqublu Ramil Yaşar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $722^{a}$ qrup tələbəsi Cavadova Humay Azər qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $722^{a}$ qrup tələbəsi Talıbov Kənan Vidadi oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $80^{a}$ qrup tələbəsi Süleymanlı Elşad Telman oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $80^{a}$ qrup tələbəsi Sadıxova Ruhəngiz Elxan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $72^{a}$ qrup tələbəsi Səmədli Məryam Rasim qızının adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $73^{b}$ qrup tələbəsi Hüseynov Hüseyn Mayis oğlunun adına verilmiş tələbə bileti və müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $717^{i-4}$ qrup tələbəsi Wahed Shmran Shnawan oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın dosenti Rəşid Mahmudova yaxın dostu, tanınmış şair

**Dəmir Gədəbəylinin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Patoloji fiziologiya kafedrasının əməkdaşları kafedranın assistenti Aytac Bədəlovaya nənəsi

**Tamara xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Anesteziologiya və reanimatologiya, III daxili xəstəliklər kafedralarının əməkdaşları anesteziologiya və reanimatologiya kafedrasının assistenti İradə Məmmədovaya atası

**Ənvər müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ümumi gigiyena və ekologiya kafedrasının kollektivi professor Tahir Süleymanova və Təranə xanıma əzizləri

**Tamara xanımın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Ümumi gigiyena və ekologiya, qidalanma və kommunal gigiyena kafedralarının əməkdaşları assistent Nigar Əliyevaya atası

**Valeri Əbdüləzimovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının əməkdaşları kafedranın professoru Nadir Hüseynova qardaşı

**Rəhmanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^{c}$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200